


Mustafayev Mahir Mustafa oğlu 04mart 1997-ci ildə Rusiya Federasiyası Çita şəhərində anadan olub.

2014-cü ildə Cəlilabad rayonu Göytəpə şəhəri 1 saylı tam orta məktəbini bitirərək Azərbaycan Texniki Universitetinin (AzTU) Nəqliyyat fakültəsinə daxil olub. Təhsil aldığı müddətdə müxtəlif fənn olimpiyadalarında iştirak edib. 2018-ci ildə Nəqliyyat fakültəsinin Nəqliyyatda daşımaların və idarəetmənin təşkili ixtisası üzrə bakalavr səviyyəsini, 2020-ci ildə isə Şəhər nəqliyyat şəbəkəsi və nəqliyyat xidmətinin təşkili ixtisası üzrə magistratura səviyyəsini bitirib.

2018-ci ildə "Çin karqo" MMC şirkətində "Broker" kimi çalışıb.

2021-ci ildən Azərbaycan Texniki Universitetində Maliyyə və təsərrüfat işləri üzrə prorektorun referenti, 2022-ci ildən "Nəqliyyat logistikası və hərəkətin təhlükəsizliyi" kafedrasının assistenti, 2025-ci ildən baş müəllimdir.

2025-ci ildən Nəqliyyat və logistika fakültəsinin tədris işləri üzrə dekan müavini kimi çalışır.

8 elmi məqalənin, 3 fənn proqramının müəllifidir.

Azərbaycan Respublikasının şəhərlərində(Lənkəran, Cəlilabad, Ağdaş, Göytəpə)şəhərdaxili mobillik (hərəkətlilik) planının hazırlanması layihələrində iştirak edib.

Yeni Azərbaycan Partiyasının (YAP) üzvüdür.